Ordu və cəmiyyət

# Azərbaycançılıq işğalı məğlub etdi!

Vətən müharibəsi qələbə ilə başa çatdı, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi. Dünya Azərbaycan Ordusunun qüdrətini gördü. Dünya onu da gördü ki, Azərbaycan xalqı torpaq üçün şəhidliyinə də hazır olan xalqdır.

Ermənistanın hərbi birləşmələri dəfələrlə dövlət sərhədimizi pozmağa, işğal edilmiş ərazilərdən torpaqlarımızı güclü atəşə tutmaqla təxribatlar törətməyə cəhd göstərirdi. Azərbaycan əsgəri hər dəfə bu cəhdlərin qarşısını qətiyyətlə alırdı. Beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərə məhəl qoymayan, Azərbaycanın danışıqlar təklifini müxtəlif bəhanələrlə uzatmağa, status-kvonu saxlamağa çalışan Ermənistan yeni ərazilər iddiasıyla yaşayırdı. Azərbaycan bunların qarşısını almalıydı.

Sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayan döyüşlər Ali Baş Komandanın əmriylə Vətən müharibəsi kimi davam etdi. Ordumuzun şəxsi heyəti bu müqəddəs əmri yüksək döyüş əzmiylə, qələbə ruhuyla yerinə yetirməyə başladı. Ordumuz döyüşlərin ilk günlərində nisbi müqavimət göstərən düşmənin müdafiə səddini yardı, dayaq məntəqələrini dağıtdı, komanda məntəqələrini fəaliyyətsizləşdirdi. Strateji əhəmiyyətli yüksəkliklərdən sıxışdırılan düşmən yaşayış məntəqələrində daha ciddi müqavimət göstərirdi. Azərbaycan Ordusu bu müqaviməti qətiyyətlə, cəsarətlə dəf edərək kəndləri işğaldan azad edirdi. Qazanılan qələbələr döyüşçülərimizin döyüş ruhunu da, qələbə əzmini də yüksəldirdi. Mən də ərazilərimizin işğaldan azad edilməsini böyük sevinclərlə yaşayırdım. Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verilmiş Mübariz İbrahimovun təkbaşına mərdliklə döyüşdüyü, şəhid olduğu mövqenin alınmasını da həmin səviyyədə sevinclə yaşadım.

Azərbaycan Ordusu Suqovuşanı, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını işğaldan azad edəndə, düşmən məğlub olduğunu etiraf etməli idi. Ermənliyi imkan vermədi. Havadarlarından kömək almağa cəhdlər göstərdi. Bilmədi ki, nə qədər kömək alırsa-alsın, məğlubiyyətə məhkumdur. Bilməliydi ki, işğalçılıq vətənpərvərliyə heç zaman qalib gələ bilməz.

Şuşanın işğaldan azad edilməsi "Mən azərbaycanlıyam!" deyənlərin hamısının ürəyini dağa döndərdi. Qədərsiz sevinc yaşanıldı. Bu, böyük qələbə idi. Şuşa kimi çətin relyefə malik olan şəhəri işğaldan azad etmək çətin, çox çətin idi. Azərbaycan Ordusu bu çətini, bu mümkünsüzlüyü mümkün etdi. Düşmən bundan sonra döyüşə bilməzdi; darmadağın edilmiş ordusu ilə nəyə nail ola bilərdi ki?!..

Düşmən təslim oldu.

Noyabrın 10-u Vətən müharibəsinin başa çatdığı gün oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediklərini xatırlayacağıq: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun, Azərbaycan xalqına! Yaşasın, Azərbaycan!"...

Vətən müharibəsində azərbaycançılıq işğalı məğlub etdi!..

Vətən müharibəsində tarixlər yazıldı: Qələbənin tarixi, bəşəriliyin tarixi. Azərbaycan Ordusu bu qələbəsiylə həm də beynəlxalq terror şəbəkəsinin birini ləğv etdi...

Məcburi köçkünlər doğma yerlərə qayıdacaq. Şəhərlər, kəndlər Cocuq Mərcanlı kimi yenidən qurulacaq...

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**